Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası




# Azərbaycan Milli Kinosu Tariximizin salnaməsidir

**Azərbaycan Milli Kino Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Azərbaycan Milli Kinosu Tariximizin salnaməsidir:** Azərbaycan Milli Kino Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.A.Əliyeva; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. – 45 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

İnsanın fantaziyası və istedadı olarsa, gec-tez üzə çıxacaq. Hətta ona mane olan qüvvələr və rejim öz müqaviməti ilə son nəticədə istedadın çiçəklənməsinə səbəb olacaq... Sivil dünyanın başlıca atributlarından sayılan kino sənəti özünün 120 illik yubileyini qeyd edir. Ötən əsr ərzində kino özünü təsdiq etdi, yaşadı, formalaşdı, ictimai şüura güclü təsir göstərdi.

Azərbaycanda ilk teatr, ilk qəzet, ilk opera, ilk bədii film – bunlar hamısı mədəniyyətimizin tarixi anlarıdır ki, bizi sivil dünyaya yaxınlaşdırır. Və kino sənətimizin, daha doğrusu, bədii kino tariximizin 1916-cı ildən başlaması sözsüz ki, əlamətdar hadisə, əlamətdar yubileyidir. Hələ düşünəndə ki, kino özü 1895-ci ildə ərsəyə gələn yeni sənətdir, ölkəmizdə bu sənətin tezliklə əxz olunmasını yüksək qiymətləndirmək lazımdır.

1895-ci ildə Fransada Oqüst və Lui Lümer qardaşlarının əsasını qoyduğu kino bəşər mədəniyyəti tarixində böyük səhifə açmışdır. Kino bizi əhatə edən maddi aləmin gerçək ekran obrazını böyük ustalıq və inandırıcılıqla yarada bilir.

Kinonun bir sənət əsəri kimi təşəkkülündə teatr, ədəbiyyat, rəssamlıq, qrafika və s. kimi bədii yaradıcılıq sahələri əhəmiyyətli rol oynamışdır. Ədəbiyyat kinoya əvvəlcə ssenari yazısı, daha sonra müstəqil janr olan ədəbi kinossenarini, musiqi isə ritm və tempi bəxş etmişdir. Bütün bunlar göstərir ki, kino yarandığı dövrdən etibarən sintetik, zaman-məkan sənət növü kimi təşəkkül tapmağa başlamışdır.

Azərbaycan kinosunun 120 illik yubileyi münasibətilə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə *"Azərbaycan kinosu xalqımızın sərvətidir"* adlanır və Azərbaycan kinosunun inkişafından bəhs edir. II hissədə isə bu mövzudan bəhs edən tədbirlərdən söhbət açılır.

## Azərbaycan kinosu xalqımızın sərvətidir

Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan Kinosu Gününün təsis edilməsi haqqında" 2000-ci il 18 dekabr tarixli Sərəncamına əsasən hər il avqustun 2-si ölkəmizdə "Azərbaycan Kinosu Günü" kimi qeyd olunur.

Azərbaycan kinosu xalqımızın maariflənməsində, estetik zövqünün formalaşmasında, milli və vətənpərvərlik hissinin güclənməsində özünəməxsus rol oynamış, milli-mənəvi dəyərlərimizi və adət-ənənələrimizi yaşatmışdır. Milli kino sənətimizin bu cəhətlərini yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev demişdir: "Azərbaycan xalqının bir çox nəsilləri kino sənəti ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib və mədəniyyətə qovuşubdur... Xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir".

Dünya kinosunun tarixi ilə üst-üstə düşən Azərbaycan kinosu da ilk vaxtlar səssiz və ağ-qara, sonradan isə rəngli və səsli formada olub. Azərbaycan kino sənətinin tarixi 1898-ci ildən başlayır. 1898-1935-ci illərdə Azərbaycanda səssiz kinolar çəkilsə də, bu illərdə həm sənədli, həm də bədii filmlər yaradılmışdır. 1898-ci ildən başlayaraq Azərbaycanda "Şəhər bağında xalq gəzintisi", "Bazar küçəsi sübhçağı", "Qatarın dəmiryol stansiyasına daxil olması", "Bibiheybətdə neft fontanı yanğını" və başqa filmlər çəkilmişdir. 1900-cü ildə Parisdə keçirilən ümumdünya kino sərgisində "Bibiheybətdə neft fontanı yanğını" və "Balaxanıda neft fontanı" xronikaları nümayiş etdirilmişdir.

XX əsrin əvvəllərində dünyanın bir sıra ölkələrində tammetrajlı filmlərin yaradılmasına başlandı. Təbii ki, bu dövrdə ölkəmizdəki ictimai-siyasi və mədəni şərait kino sənətinin formalaşmasına zəmin yaratdı və təqribən, bir əsr

bundan əvvəl Azərbaycan yazıçısı İbrahim bəy Musabəyovun dövrün həyat hadisələrini və lövhələrini əks etdirən, janr etibarilə melodram olan “Neft və milyonlar səltənətində” povesti əsasında Azərbaycanda ilk tammetrajlı film çəkildi. Film XX əsrin əvvəllərində neft Bakısının həyatını, Azərbaycan milyonçularının məişətini, bir parça çörək üçün neft mədənlərində ən ağır şəraitdə işləyib yaşayan fəhlələrin güzəranını ekranda canlandırmışdır. Azərbaycanın birinci tammetrajlı bədii filmi olan “Neft və milyonlar səltənətində” kinosuna 1916-cı ildə ilk dəfə Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin passajında “Fransız Elektrobioqrafı”nda göstərilmişdir. Kino Bakıdan başqa, Qafqazın və Orta Asiyanın bir çox şəhərlərində də nümayiş etdirilmişdir. Beləliklə, “Neft və milyonlar səltənətində” filmi ilk bədii film kimi kino tariximizə daxil olmuşdur. Avropa və Asiyanın bir sıra ölkələrinin ilk tammetrajlı filmlərinin keçən əsrin 30-50-ci illərində yarandığını nəzərə alsaq, bu filmi xalqımızın mədəni səviyyəsinin yüksək göstəricisi hesab etmək olar.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə əlaqədar 1919-cu ildə “Azərbaycanın müstəqilliyinin ildönümü münasibəti ilə təntənə” adlı tammetrajlı sənədli filmi çəkilərək nümayiş etdirilmişdir. Azərbaycanda ilk səsli kinonun istehsalına isə 1935-ci ildə “Mavi dənizin sahilində” bədii filmi ilə başlanılmışdır. Səsli kinonun yaranması ilə sənədli kinomuzun da yaradıcılıq imkanları genişlənmişdir. 1936-cı ildə görkəmli yazıçımız Y.V.Çəmənzəminlinin tərcüməsi ilə sovet kinosunun dünyada tanınan “Çapayev” filminin Azərbaycan dilində səsləndirilməsi ilə kino sənətimizdə dublyajın əsası qoyulmuşdur. 1945-ci ildə yaradılan və ekran sənətimizin qızıl fonduna daxil olan “Arşın mal alan” filmindən sonra Azərbaycan kinosunda musiqili komediya janrına meyil güclənmişdir. Azərbaycan milli kinosunun ən uğurlu

filmlərindən hesab olunan “Arşın mal alan” filmi indiyədək 136 ölkədə nümayiş etdirilmiş və 86 dilə tərcümə olunmuşdur. 1956-cı ildə kinomuzda daha bir keyfiyyət dəyişikliyi baş vermiş, ilk rəngli bədii film olan “O olmasın, bu olsun” filmi çəkilmişdir. Üzeyir Hacıbəyovun bu komediyasının ekranlaşdırılması da milli kinomuza şöhrət gətirmişdir. “O olmasın, bu olsun” filmi dünyanın 40-dan çox ölkəsində, o cümlədən Türkiyə, İran, Hindistan, Çin, Yaponiya və başqa ölkələrdə nümayiş etdirilmişdir.

İncəsənətimizin hamisi olan ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə milli kinonun inkişafına qayğı daha da artmışdır. Həmin dövrdən başlayaraq Azərbaycan kinematoqrafiyasının imkanları genişlənmiş və bu sahədə ciddi nailiyyətlər əldə edilmişdir. Kinomuzun yeni inkişaf mərhələləri yaşadığı həmin illərdə ssenarist, rejissor, operator, rəssam kadrlarının bir neçə nəsli yetişmiş və milli özünəməxsusluğu ilə seçilən koloritli, parlaq ekran əsərləri yaradılmışdır.

1970-1980-ci illərin birinci yarısında Azərbaycan kinosu özünün intibah dövrünü yaşamışdır. Bu illərdə Azərbaycan kinematoqrafçılarının yaratdıqları dəyərli filmlər milli-mənəvi dəyərlərin təbliğində, milli özünüdərk duyğularının oyadılmasında, milli şüurun formalaşmasında və yetişməkdə olan gənc nəslin tərbiyəsində mühüm rol oynamışdır. Bu filmlər məzmun və janr etibarilə kino sənətimizə yeniliklər gətirmiş və bu sevilən sənəti xalqa daha da yaxınlaşdırmışdır. Azərbaycan filmləri içərisində müxtəlif peşə və sənət adamlarının həyatından bəhs edən, tarixi yaddaşı özünə qaytaran filmlərin çox olması ekran sənətimizin mövzu əlvanlığının göstəricisidir. Bədii kinomuzun janr müxtəlifliyi isə filmlərin hərbi, tarixi-qəhrəmanlıq, musiqili komediya, detektiv, macəra, psixoloji, qrotesk, sosial pamflet, nağıl və başqa janrlarda özünü

təcəssüm etdirmişdir. Azərbaycan kinosu həm də multikultural dəyərlərin daşıyıcısı kimi başqa xalqların nümayəndələrinin obrazlarını da filmlərimizdə canlandırmışdır. Bu illər ərzində kino salnaməmizin unudulmaz səhifələrini təşkil edən, mədəniyyətimizin qızıl fonduna daxil olan tarixi filmlər yaradılmış, görkəmli əsərlər ekranlaşdırılmış, müasir mövzulu və sənətkarlıq baxımından diqqətəlayiq filmlər çəkilmişdir. Həmin illərdə Azərbaycanda 110 bədii, 500 sənədli və elmi-kütləvi, eləcə də 44 cizgi filmi istehsal olunmuşdur. “Bir cənub şəhərində”, “Bizim Cəbiş müəllim”, “Dəli Kür”, “Şərikli çörək”, “Dərviş Parisi partladır”, “Yeddi oğul istərəm”, “Axırıncı aşırım”, “Nəsimi”, “Dədə Qorqud”, “Babək”, “Nizami” və başqa bədii filmlərimiz bu illərdə çəkilib. Bu filmlərimizi fərqləndirən əsas cəhətlərdən biri də xalqımızın həyatına, başlıcası isə çoxəsrlik tariximizə, adət-ənənələrimizə, milli dəyərlərimizə daha dərindən nüfuz etməsində idi. Sovet imperiyası dövründə bu, nə qədər çətin olsa da, ulu öndərin təşəbbüsü ilə milli kinomuzun qızıl fondu sayılan bu cür sənət nümunələri yaradılmışdır.

Müstəqillik illərində milli kinomuza xüsusi diqqət yönəldilməsi də məhz ulu öndərin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərində məhv olmaq təhlükəsi ilə üzləşən incəsənətin bu vacib sahəsi 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1998-ci il 19 avqust tarixdə “Kinematoqrafiya haqqında” Qanun qəbul edilmiş və bununla da, dövlət kinematoqrafiyasının hüquqi bazası yaradılmışdır. 1996-cı ildə isə Azərbaycan Dövlət Film Fondu yaradılmış, filmlərin qorunması təmin edilmişdir.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən milli kino sənətinin inkişafı üçün mühüm işlər həyata keçirilir. Ölkə başçısı 2008-ci il 4 avqust tarixli Sərəncamla “Azərbaycan

kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı"nı təsdiq etmişdir. Proqramda kinofilmlərin istehsalının artırılması, eləcə də müasir kino avadanlıqları və texnikası ilə təchizat, xarici ölkələrlə birgə film istehsalının genişləndirilməsi, kinoteatrların yenidən qurulması nəzərdə tutulmuşdur. Artıq ölkəmizdə kinostudiyaların maddi-texniki bazaları gücləndirilmiş, yeni filmlər çəkilmiş, kino sənətimiz inkişafın müasir mərhələsinə qədəm qoymuşdur. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan aktual mövzulu filmlər təkcə son illər 50-dən çox beynəlxalq film festivalında iştirak edərək Azərbaycan gerçəkliklərini dünyanın kino auditoriyasına çatdırmış və nüfuzlu mükafatlara layiq görülmüşdür.

Azərbaycan kino sənətinin inkişafında Naxçıvan torpağının yetirdiyi sənətkarlar Qəmər Salamzadə, Rza Təhmasib, Həbib İsmayılov, Məmmədhüseyn Təhmasib, Şamil Mahmudbəyov, Ramiz Mirişli, Elxan Qasımov və başqalarının dəyərli xidmətləri olmuşdur. Unudulmaz filmlərimizdən olan "Nəsimi", "Dədə Qorqud", "Babək", "Əzablı yollar", "Gümüşgöl əfsanəsi", "Doğma sahillər" və başqa ekran əsərlərinin müəyyən hissələri və natura çəkilişləri Naxçıvan Muxtar Respublikasında aparılmışdır. Bu gün də Naxçıvan Muxtar Respublikasında kino sənətinin inkişafına böyük diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nəticəsində Naxçıvan şəhərində "Gənclik" Mərkəzi yaradılmış, Şərurda "Bahar", Şahbuzda "Araz" kinoteatrları, Ordubad və Babək rayon mədəniyyət evləri yenidən qurulmuş, ən müasir videoproyektorlarla, lazımi texniki avadanlıqlarla təchiz olunmuşdur. Muxtar respublikamızda Dövlət Film Fondunun fəaliyyət göstərməsi də bu sahəyə göstərilən qayğının daha bir nümunəsidir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin iş planına əsasən "Azərbaycan Kinosu Günü"

çərçivəsində hər həftə bir milli bədii film geniş ictimaiyyətə təqdim olunur. “Nabat”, “Cavad xan”, “Arşın mal alan”, “Axınla aşağı”, “Buta”, “Əbədi ezamiyyət”, “Hədəf Bakıdır” və başqa bədii, sənədli filmlərimiz geniş ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Naxçıvan Dövlət Film Fondunda 4500-dən çox film saxlanılır. Azərbaycan filmləri ilə yanaşı, burada müxtəlif ölkələrdə istehsal olunmuş bədii, sənədli filmlər, cizgi filmləri, qısametrajlı, elmi-kütləvi, Azərbaycan dilinə dublyaj edilmiş filmlər də mühafizə olunur. Eyni zamanda fondda 100-dən çox Azərbaycan filminin ssenarisi ilə tanış olmaq imkanı da mövcuddur.

Azərbaycan kinosu zamanın böyük sınaqlarından şərəflə çıxaraq xalqa xidmət yolunu tutmuş və sevilən sənət sahəsinə çevrilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: “Bizim kinonun tarixi və əldə etdiyi nailiyyətlər milli sərvətimizdir, mədəni sərvətimizdir və bunu qorumalıyıq”.

## Yubiley tədbirlərinin keçirilməsi

Azərbaycan kinosunun 120 illik yubileyi münasibətilə kitabxanada kitab sərgisi keçirilə bilər. Sərgidə Azərbaycan kinosu haqqında yazılmış kitablar, dövri mətbuatda dərc olunmuş yazı nümunələri, görkəmli şəxsiyyətlərin kino haqqında söylədikləri kəlamlar yer almaqdadır. Müxtəlif şəkillər, ayrı-ayrı kino səhnələrinin rəsmləri və tamaşa zamanı çəkilmiş fotolar yerləşdirilir. Sərgiyə müxtəlif başlıqlar verilir: “Azərbaycan kinosu – 120”, “İnkişafın yeni mərhələsi”, “Bu kino ki, var...”, “Azərbaycan kinosu xalqımızın sərvətidir”, “Azərbaycan milli kinosu tariximizin salnaməsidir”, “Kino bizə nə deyir?”, “Milli dəyərlərimiz Azərbaycan kinosu”, “Yaddaşımızın ekran salnaməsi”, “Taleləri yaşadan sənət”,

“Kamera dünyaya baxır”, “Kino aləmində satira”, “Kinomuzun dünəni, bu günü” və s. Bundan başqa dünya və Azərbaycan kinosuna aid müxtəlif şəkillər və görkəmli insanların Azərbaycan Kinosu Günü haqqında söylədikləri sitatlar sərgidə verilir.












## Görkəmli şəxsiyyətlər kino haqqında

Bəşəriyyət qarşısında kinonun xidməti böyükdür. Amma bizim xalqımızın inkişafı yolunda Azərbaycan kinosunun xidməti əvəzsizdir.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Kino musiqidi, teatrdı, ədəbiyyatdı, bir sözlə, özgə aləmdi.

**Abbas Mirzə Şərifzadə,**
*Mədəniyyət xadimi, kinorejissor*

Foto gerçəkdir, kino isə saniyədə iyirmi dörd dəfə gerçək.

**Jan Lük Qodar,**
*rejissor*

Yaxşı filmin qüsurları da olmalıdır. Həyat kimi, insanlar kimi.

**Federiko Fellini,**
*rejissor*

Filmdəki mənfi qəhrəman nə qədər güclü alınıbsa film də o qədər yaxşıdır.

**Alfred Hiçkok,**
*rejissor*

Hər yeni film mənə həyatımı necə idarə edəcəyimi öyrədir.

**Nuri Bilgə Ceylan,**
*rejissor*

Barmağımı kəssəm tragediyadır. Qapağı açıq kanalizasiyaya düşüb ölməyim isə komediya.

**Mel Bruks,**
*rejissor*

Dram filmlərimdə bəzi qüsurlar buraxdığımı etiraf edirəm. Mən elə bilirdim aktyor ağlayanda dram olur. Sən demə tamaşaçı ağlayanda dram olurmuş.

**Frank Kapra,**
*rejissor*

Kino hissləri, arzuları və şüuraltını izah etmək üçün ən yaxşı vasitədir.

**Luis Bunuel**,
*rejissor*

Azərbaycan kinosunun 120 illik yubileyi münasibətilə kitabxanada bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, rəsm və digər müsabiqələr, dəyirmi masa, icmal, ədəbi-bədii gecə keçirilə bilər. Bu tədbirlərdən biri də tələbələr arasında keçirilən *"Tarixi yaşadan ünvanlar – Azərbaycan kinosu"* adlı **"dəyirmi masa"** dır. Tədbirdə alimlər, tarixçilər, kinoşünaslar, rejissorlar, kinossenaristlər, kinematoqraflar, müəllimlər, ali məktəb tələbələri, incəsənət adamları, aktyorlar və s. qonaqlar iştirak edirlər. İlk olaraq kitabxanaçı hər kəsi salamladıqdan sonra mövzuya uyğun olaraq çıxışa başlayır. Çıxışda dünya və Azərbaycan kinosu haqqında məlumat verir.

*Kitabxanaçı:* Dünya kino sənətinin tarixi 1895-ci ildən başlanırsa, Azərbaycanda isə bu sənətin tarixi 1898-ci ilə təsadüf edir. İlk filmlər fotoqraf və nasir Aleksandr Mişon tərəfindən çəkilmiş xronika sujetləri və bir bədii kinosujetdən ibarət idi. Azərbaycanın ilk bədii filmi isə 1915-ci ildə çəkilişinə başlanılan "Neft və milyonlar səltənətində" adı ilə tanınıb. Kino janrları içərisində hər zaman böyük maraqla qarşılanan kinokomediyaların çəkilişinə isə Azərbaycanda 1916-cı ildən başlanılıb. İlk kinokomediya Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası əsasında çəkilib.

İllər keçdikcə, texnika inkişaf etdikcə kino sənətində də yüksəlişlər özünü büruzə verməyə başlayırdı. XX əsrin ortalarında Azərbaycan kino tarixinə öz möhürünü vurmağı bacarmış əsl sənət nümunələri işlənib hazırlanılırdı. “Bəxtiyar”, “Yeddi oğul istərəm”, “Dəli Kür”, “Əhməd haradadır”, “Ulduz”, “O olmasın, bu olsun”, “Bizim Cəbiş müəllim”, “Bir dəfə Qafqazda”, “Görüş”, “Böyük dayaq”, “Ögey ana”, “Nəsimi”, “Babək”, “Dədə Qorqud”, “Dərviş Parisi partladır”, “Bəyin oğurlanması”, “Sehirli xalat”, “Yol əhvalatı” və adlarını çəkmədiyim onlarla kino inciləri dəfələrlə izlənmələrinə baxmayaraq bu gün də sevilir, təkrar-təkrar izlənilir.

Özündə bədiiliyi, tarixi, mədəniyyəti, dövrün ictimai görünüşünü, milli mentaliteti, fantastik düşüncə tərzini, fəlsəfi baxışları ehtiva etdirən kinolar eyni zamanda da insanların hazırki ən gözəl istirahətlərini təşkil edirlər. Xüsusilə də son zamanlarda texnologiyanın inkişafı, yeni formatların, effektlərin gətirilməsi bu sevimli sahəni insanlar üçün daha da baxımlı edib. Kinorejissor, operator, aktyor işinin vəhdətindən əmələ gələn bir başqa ağır və məsuliyyətli işlər də var. Çəkilən əziyyətlərin müqabilində isə hər bir ölkədə bu işlər qiymətləndirilir. Keçirilən müxtəlif festivallar, verilən müxtəlif mükafatlar əməyə verilən dəyərin bir nümunəsidir. Dünyanın ən məşhur kino mükafatı hazırda “Oskar mükafatı” hesab olunur. Bu mükafat kino sahəsindəki ən yaxşılara  verilir. Bundan başqa “AVN Awards”, “Devid di Donatello”, “Qızıl şir”, “Volpi kuboku”, “Qızıl palma”, “Qoya”, “Nika”,  “Bafta” və s. məşhur kino mükafatları bu sahəyə aid olanları qiymətləndirmənin bir növüdür. Ancaq onu da unutmaq olmaz ki, kinoya ən böyük qiyməti tamaşaçı ordusu verir.

***I iştirakçı:*** Azərbaycan kinematoqrafının tarixi 1898-ci il avqustun 2-dən başlayır. İlk filmlər fotoqraf və nasir Aleksandr Mişon tərəfindən çəkilmiş xronika süjetləri (“Bibiheybətdə neft

fontanı yanğını”, “Balaxanıda neft fontanı”, “Şəhər bağında xalq gəzintisi”, “Qafqaz rəqsi” və s.) və “İlişdin” bədii kinosüjetdən ibarət idi.

Aleksandr Mişon tərəfindən çəkilən “Bibiheybətdə neft fontanı yanğını” filmindən kadr 1915-ci ildə Qafqazda Pirone qardaşlarının açdığı səhmdar cəmiyyətləri (ticarət evləri) tərəfindən Bakı, Tiflis, İrəvan şəhərlərində prokat kontorları yaradılmışdır. 1915-ci ildə adı çəkilən cəmiyyət neft sənayeçilərinin pulu ilə İbrahim bəy Musabəyovun “Neft və milyonlar səltənətində” romanı əsasında eyni adlı ilk Azərbaycan bədii filminin çəkilişinə başladı. Filmi çəkmək üçün Sankt-Peterburqdan rejissor Boris Svetlov dəvət olunmuşdur. Təbiət mənzərələri Bakıda və ətraf kəndlərdə, pavilyonla bağlı səhnələr isə Tiflisdə çəkilirdi. Filmdə Lütfəli bəy rolunu Hüseyn Ərəblinski oynamışdır. 1916-cı ildə Bakıda Üzeyir Hacıbəyovun “Arşın mal alan” operettası əsasında ilk Azərbaycan kinokomediyası çəkildi. 1919-cu ildə isə “Azərbaycanın müstəqilliyinin ildönümü münasibətilə təntənə” adlı tammetrajlı film ekranlarda nümayiş etdirildi.

***II iştirakçı*:** 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) təsis olundu. AFKİ ayrı-ayrı sahibkarların foto, kinoteatr və prokat kontorların milliləşdirilməsi və birləşdirilməsi tədbirlərini həyata keçirirdi. O zamanlar AFKİ-nin nəzdində Bakıda “Təyyarə”, “Edison”, “Milyon”, “Ladya”, “Mədənçi” və s. kinoteatrlar da var idi. 1924-cü ildə AFKİ ikiseriyalı “Qız qalası əfsanəsi” adlı bədii filmi ekranlara çıxardı. Etnoqrafik cəhətdən maraqlı olan bu filmdə müəlliflər Şərq ekzotikasından qaça bilməmişdilər.

Azərbaycanda milli rejissor və aktyor kadrları hazırlamaq üçün 1925-ci ildə Şamil Mahmudbəyovun təşəbbüsü ilə AFKİ-nin nəzdində studiya təşkil edildi. Cəfər Cabbarlı, Mikayıl Mikayılov və başqaları burada oxumuşdular. Filmlərin

bədii keyfiyyətini yüksəltmək, milli kadrların inkişafına kömək məqsədilə Bakıya Vsevolod Pudovkin, Nikolay Şengelaya, Mixail Çiaureli kimi məşhur kinorejissorları, eləcə də Aleksandr Qalperin, İvan Frolov, Dmitri Feldman, Leonid Kosmatov, Yevgeni Şneyder və başqa kinooperatorlar dəvət olunmuş, Cəfər Cabbarlı, Abbas Mirzə Şərifzadə və başqaları kino yaradıcılığı işinə cəlb edilmişdilər.

AFKİ sonralar "Azdövlətkino" (1926-1930), "Azərkino" (1930-1933), "Azfilm" (1933), "Azdövlətsənayesi" (1934), "Azərfilm" (1935-1940), "Bakı kinostudiyası" (1941-1959) kimi adlar daşımışdır. 1961-ci ildən C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası adlanır.

Xurafat və cəhalətə qarşı mübarizə, inqilab, qadın azadlığı 1920-ci illərdə Azərbaycan kinosunun əsas mövzusu idi. "Bismillah", "Vulkan üzərində ev", "Hacı Qara" kimi kino əsərləri, eləcə də öz azadlığı uğrunda mübarizə aparan Azərbaycan qadını obrazını bədii və real şəkildə ifadə edən "Sevil" həmin dövrdə yaradılmış uğurlu filmlərdəndir. XX əsrin 20-ci illərində Bakıda yerli operatorlar və xarici kino şirkətlərinin nümayəndələri tərəfindən şəhərin həyatından, neft mədənlərindən bəhs edən kinoxronikalar və sənədli filmlər çəkilirdi. 1920-ci ildə "Bakıda 9 qızıl Ordunun rəsmi keçidi" adlı ilk xronika kinojurnalı çəkilmişdir. Həmin il "Şərq xalqlarının birinci qurultayı" xronika filmi də yaradıldı. Sonrakı illərdə müəyyən hadisələrlə bağlı kinoreportajlar hazırlandı: "Sovet Azərbaycanının 3-cü ildönümü", "Suraxanı neft mədənlərində yanğın", "Nəriman Nərimanovun dəfni", "Frunzenin iştirakilə Qızıl Ordunun manevri" və s. sənədli filmlərlə yanaşı, elmi-kütləvi filmlərin də istehsalına başlanıldı.

1925-ci ildə rejissor Abbas Mirzə Şərifzadə respublikanın mədəni və iqtisadi həyatından bəhs edən "Azərbaycana səyahət" filminin çəkilişini başa çatdırdı. 1920-ci illərdə Azərbaycan

kinosunda tarixi-sənədli filmlərlə yanaşı, tamaşaçıları gənc respublikanın təsərrüfat və mədəni həyatındakı nailiyyətləri ilə tanış edən “Azərbaycan ekranı” kinojurnalı (ildə 4-5 nömrə) buraxılmağa başlandı. Bu illər Azərbaycan sənədli kinosunda Mikayıl Mikayılov, Aleksandr Makovski, Aleksandr Litvinov kimi istedadlı rejissorlar, Yakov Tolçan, İvan Tartakovski kimi operatorlar çalışırdılar.

***III iştirakçı:*** 1930-cu illərdə Azərbaycan kinematoqrafında Seyfulla Bədəlov, Vladimir Yeremeyev, Ələsgər Ələkbərov və başqaları fəaliyyətə başladılar. Bu sənətkarların filmlərində ilk beşilliklərdə respublikanın həyatı, kolxoz quruculuğu, mədəniyyət sahəsindəki uğurlar, Azərbaycanda neft sənayesinin yeni texnika ilə təchizi və s. əksini tapmışdı. Sənədli filmin imkanları daxilində bitkin insan obrazı yaradılması sahəsindəki cəhdlər o dövrün bədii nailiyyətlərindəndir. 1930-cu illərin əvvələrində mövzusu müasir həyatdan alınmış, məişəti bədii şəkildə təsvir edən, eləcə də tarixi-inqilabi mövzulu filmlər çəkilirdi: “Lətif”, “İsmət”, “Almaz” və “Yeni horizont”, “Bakılılar”, “Kəndlilər” və s.

1935-ci ildə “Azərfilm”in Moskvanın “Mejraypromfilm” kinostudiyası ilə birgə yaratdığı “Mavi dənizin sahilində” bədii filmi ilə Azərbaycanda səsli kino əsərlərinin istehsalına başlanıldı. Filmdə baş rollarda görkəmli sovet kinoaktyorları Lev Sverdlin, Nikolay Kryuçkov, Yelena Kuzmina və başqaları çəkilmişlər. 1936-1941-ci illərdə ekranlara 10-dan çox səsli film buraxılmışdır. 1930-cu illərdə səsli kinonun yaranması ilə sənədli kinonun da yaradıcı imkanları genişləndi. “Şöhrətli Azərbaycan” bir hissəli sənədli xronika kinoalmanaxında ilk dəfə olaraq diktor mətni oçerkin qəhrəmanlarının çıxışı ilə sinxron verilmişdir. 1939-cu ildən “Azərbaycan ekranı” kinojurnalı “Ordenli Azərbaycan” (ildə 36 nömrə) adı altında

çıxmağa başladı. 1930-cu illərin səssiz filmlərindən tammetrajlı "Şərqə yol", "Azərbaycan incəsənəti" filmləri diqqətə layiqdir.
***IV iştirakçı:*** 1940-cı ildə rejissorlar Mikayıl Mikayılov və Vladimir Yeremeyev Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 20 illiyi münasibətilə "İyirminci bahar" sənədli filmini yaratdılar.

İkinci dünya müharibəsi illərində qəhrəman döyüşçülər Kamal Qasımov və Bəxtiyar Kərimova həsr olunmuş "Vətən oğlu" və "Bəxtiyar" kinonovellaları, Mirzə Fətəli Axundovun həyat və fəaliyyətinə dair "Səbuhi", vahid süjet xətti ilə bağlı üç kinonovelladan ibarət "Bir ailə", müharibə dövründə dənizçilərin göstərdikləri igidliklərə həsr olunmuş "Sualtı qayıq T-9" bədii filmləri çəkilmişdir.

İkinci dünya müharibəsi illərində Azərbaycan sənədli kinosunun bir qrup rejissorları və operatorları cəbhə xəttinə gedərək əsgələrin qəhrəmanlığını lentə çəkirdilər. Həmin materiallar xüsusi buraxılışlar kimi əsgərlərə göstərilmək üçün müxtəlif cəbhələrə göndərildi. Bu dövrdə Azərbaycan xalqının arxa cəbhədəki əməyini əks etdirən kinojurnallar, kinooçerklər də yaradıldı. "Vətən uğrunda", "Qayğı", "Məktuba cavab" və s. 1944-cü ildə "Bakı kinostudiyası" Moskva Sənədli Filmlər Studiyası ilə birgə Xəzər dənizçilərinin qəhrəmanlığından bəhs edən "Xəzərilər" tammetrajlı sənədli filmini çəkdi.

1945-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 25 illiyi ilə əlaqədar rejissor Hüseyn Seyidzadə "Əbədi odlar diyarı" tammetrajlı sənədli filmini yaratdı. Həmin ildə Üzeyir Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası yenidən ekranlaşdırıldı. Rejissorlar Rza Təhmasib və Nikolay Leşşenko milli koloriti və xalq yumorunu saxlamaqla parlaq realist kinokomediya yarada bilmişdilər. Film SSRİ-də, eləcə də dünyanın bir çox ölkəsində uğurla nümayiş etdirilmişdir. "Arşın mal alan" filminə görə rejissorlar Rza Təhmasib və Nikolay

Leşşenko, bəstəkar Üzeyir Hacıbəyov, aktyorlardan Rəşid Behbudov, Leyla Bədirbəyli, Ələkbər Hüseynzadə, Münəvvər Kələntərli və Lütfəli Abdullayev 1946-cı ildə SSRİ Dövlət mükafatına layiq görüldülər.

Müharibədən sonrakı illərdə "Sovet Azərbaycanı" (ildə 36 nömrə; "Ordenli Azərbaycan" kinojurnalının yeni adı) ilə yanaşı "Gənc nəsil" (ildə 4 nömrə) kinojurnalının da buraxılışına başlandı. 1945-50-ci illərdə sənədli kino sahəsində ssenaristlər İmran Qasımov, Ədhəm Qulubəyov, rejissorlar Zeynəb Kazımova, Lətif Səfərov, operator Arif Nərimanbəyov, bəstəkarlar Qara Qarayev, Tofiq Quliyev və b. fəaliyyətə başladılar. Cənubi Azərbaycan xalqının 1945-1946-cı illərdə azadlıq mübarizəsindən bəhs edən "Arazın o tayında" tammetrajlı filmi diqqəti cəlb edirdi.

***V iştirakçı:*** 1940-cı illərin sonu, 1950-ci illərin əvvəllərində Bakı kinostudiyasının əsas istiqaməti bədii-sənədli və publisistik filmlərin çəkilməsinə yönəldilmiş, bu dövrdə yalnız "Fətəli xan" və "Bakının işıqları" bədii filmləri çəkilmişdir.

Azərbaycan kinosunun yeni inkişaf mərhələsi 1950-ci illərin ortalarından başlanır. Bu dövrdə milli ssenarist, rejissor, operator, rəssam kadrları yetişirdi. Onların çoxu Ümümittifaq Dövlət Kinematoqrafiya İnstitutunda təhsil almışdılar. Həmin illərdə bədii filmlərin çəkilişinin sayca çoxalması onların mövzu dairəsinin genişlənməsinə səbəb oldu. Ekranda fəhlə və kolxozçuların, müxtəlif peşə sahiblərinin əməyi və həyatı öz əksini tapdı: "Qızmar günəş altında", "Qara daşlar", "Kölgələr sürünür", "Onun böyük ürəyi", "Onu bağışlamaq olarmı?", "Bizim küçə", "Böyük dayaq!", "Telefonçu qız", "Ögey ana".

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsinin 30 illiyi münasibətilə 1950-ci ildə "Sovet Azərbaycanı" rəngli tammetrajlı sənədli filmi yaradıldı. Film 1951-ci ildə Kann kinofestivalı xüsusi mükafatına layiq görüldü. Sonrakı illərdə müasirlik mövzusu xalqın məişəti, əmək nailiyyətləri sənədli

kino ustalarının yaradıcılığında başlıca yer tutmuşdu: “S. M. Kirov adına körfəzdə”, “Azərbaycan elmi”, “Bizim Azərbaycan”.

“Bakı və bakılılar”, “Azərbaycan mədəniyyətinin baharı”, “150 il. Mirzə Fətəli Axundov” və digər sovet kinosu sənətinin görkəmli nümayəndələrindən sayılan “Xəzər neftçiləri haqqında dastan” və “Dənizi fəth edənlər” filmlərini, rejissor Roman Karmen “Bakı kinostudiyası”nda çəkmişdir. Həmin filmlərdə dəniz neftçilərinin fədakar əməyi və həyatı əks olunmuşdur. Bu filmlərə görə rejissor Roman Karmen, operatorlar Cavanşir Məmmədov və Sergey Medınski “Lenin” mükafatına layiq görülmüşlər.

Bakı kinostudiyasında müxtəlif mövzularda filmlər yaradılmışdır. 1957-ci ildə çəkilmiş “Bir məhəlləli iki oğlan” filmi Şərq ölkələrindən birində xalqın azadlıq və demokratiya uğrunda mübarizəsindən bəhs edir. Partizan Mehdi Hüseynzadəyə həsr edilmiş “Uzaq sahillərdə” filmi isə Azərbaycanın, eləcə də keçmiş sovet kinosunun nailiyyətlərindəndir. Dinamik, gərgin hadisələr, dəqiqliklə verilmiş xarakterlər, operator və rejissor işinin yüksək səviyyəsi filmə geniş şöhrət qazandırmışdır.

***VI iştirakçı:*** 1960-cı illərin əvvələrindən Azərbaycanda rəngli filmlərin çəkilişi genişləndirildi. “Koroğlu” bədii filmi Azərbaycan genişekranlı rəngli kinosunun ilk nümunəsidir. “Səhər” filmi Bakıda 1905-1907-ci illər inqilabı hadisələrindən söhbət açır. “Mahnı belə yaranır” filmi Dağıstanın Xalq şairi Süleyman Stalskiyə həsr edilmişdir. “Məhəbbət dastanı”, “Leyli və Məcnun” mövzuları əsasında çəkilmişdir.

“Arşın mal alan” filmindən etibarən Azərbaycan kinosunda musiqili komediya janrına meyil güclənmişdi. “Görüş”, “O olmasın, bu olsun”, “Romeo mənim qonşumdur”, “Əhməd haradadır?”, “Ulduz”, “Arşın mal alan”, “Qayınana” və s. filmlərdə bu ənənə davam etdirilmişdir.

XX əsrin 1960-70-ci illəri kinematoqrafiyaya gənclərin böyük bir qrupunun gəlməsi ilə əlamətdar olmuşdur. Onların orta və yaşlı nəslə mənsub xadimlərlə əməkdaşlığı Azərbaycan kinosunun peşəkar səviyyəsinin yüksəlməsinə, milli özünəməxsusluq, ideya dərinliyi ilə fərqlənən filmlərin meydana gəlməsinə səbəb olmuşdur. Məsələn, "Bir cənub şəhərində" filminin mərkəzində yeniliklə köhnəliyin mübarizəsi, insanın köhnəlmiş adətlərin əsarətindən xilas olması prosesi durur. 1966-cı ildə "Azərbaycanfilm"də rəssam və rejissor-multiplikator kursları açılmışdır. 1969-cu ildə "Azərbaycanfilm"də yaradılmış multiplikasiya sexində Alla Axundovanın Azərbaycan xalq nağılları əsasında yazdığı ssenari üzrə birhissəli rəngli "Cırtdan" cizgi filmi çəkilmişdir.

Azərbaycan bədii televiziya filmlərindən "Ad günü" xüsusilə fərqlənir. "Dantenin yubileyi", "Təkcə adanı özünlə apara bilməzsən", "Ötən ilin son gecəsi" və digər bədii filmlər də Azərbaycan Televiziyasının istehsalıdır. "Üzeyir ömrü" televiziya filmi geniş arxiv materialları əsasında yaradılmışdır.
1960-cı illər sənədli kinosunda Oqtay Mirqasımov, Yalçın Əfəndiyev, Ruslan Şahmalıyev, Teymur Bəkirzadə, Nicat Bəkirzadə kimi gənclər fəaliyyətə başladılar. Oqtay Mirqasımovun "Dəniz", "Qobustan", "Bu, həqiqətin səsidir. Bəstəkar Qara Qarayev", "Bəstəkar Qara Qarayev. Opus-78" filmlərində 1960-cı illərin ikinci yarısında sənədli kinonun üslubundakı müəyyən dəyişikliklər (diktor mətninin olmaması, poetik əhval-ruhiyyə, dəqiq montaj) özünü göstərir. Həmin filmlərə görə, 1967-ci ildə Oqtay Mirqasımov Azərbaycan Lenin Komsomolu mükafatına layiq görülmüşdür. Bundan əlavə, "Səməd Vurğun" filminin rejissoru Yalçın Əfəndiyeva, ssenari müəllifi İsmayıl Şıxlıya, operator Z.Məmmədova, Cəfər Cabbarlının xatirəsinə həsr olunmuş "Solmaz bir bahar kimi"

filminin rejissoru Cahangir Zeynallı Azərbaycan Lenin Komsomolu mükafatı verilmişdir.

***VII iştirakçı:*** 1970-ci illərin bəzi filmlərində, İkinci dünya müharibəsi mövzusu əksini tapmışdır: “Bizim Cəbiş müəllim”, “Bakıda küləklər əsir”, “Tütək səsi” və “Şərikli çörək” filmində müharibənin son aylarında Bakının həyatı xüsusi səmimiliklə təsvir olunur. Həmin dövrün filmlərində, həm də mənəvi-əxlaqi problemlər, müasir həyata müxtəlif baxışlar, insan xarakterlərinin təhlili, gənc nəslin formalaşması və s. mövzular başlıca yer tutur: “Uşaqlığın son gecəsi”, “Gün keçdi”, “Ən vacib müsahibə”, “Var olun, qızlar...”, “Həyat bizi sınayır”, “Xoşbəxtlik qayğıları” və s. filmləri göstərmək olar.

1970-ci ildən “Azərbaycanfilm” kinostudiyasında “Mozalan” satirik kinojurnalının istehsalına başlanılmışdır. Kinojurnalda cəmiyyətin antipodları, gündəlik həyatda və təsərrüfatda rast gəlinən qüsur və nöqsanlar tənqid atəşinə tutulurdu.

1970-80-ci illərdə tarixi-inqilabi janrda bir sıra maraqlı, orijinal filmlər çəkilmişdir. Mosfilm kinostudiyası ilə birgə yaradılmış Nəriman Nərimanovun fəaliyyətindən bəhs edən “Ulduzlar sönmür” filmi bu baxımdan diqqətəlayiqdir. Səməd Vurğunun “Komsomol poeması” nın motivləri üzrə çəkilmiş “Yeddi oğul istərəm...” filmi 1920-ci illərin komsomolçularına həsr olunmuşdur. Yüksək ideyalılıq, vətəndaşlıq motivləri ilə kinematoqrafiyanın ifadə vasitələrinin uyarlığı, gözəl aktyor oyunu bu filmin mühüm məziyyətlərindəndir. “Səmt küləyi” filmi Azərbaycan kinosunun tarixində xarici ölkə (Çexoslovakiya) studiyası ilə birgə yaradılmış ilk əsərdir, “Axırıncı aşırım”, “Qatır Məmməd” filmlərində sovet hakimiyyətinin ilk illərində Azərbaycan kəndində gedən sinfi mübarizədən bəhs olunur. “Sevinc buxtası”, “Atları yəhərləyin”, “İşarəni dənizdən gözləyin” filmləri də tarixi mövzulardadır. “Nəsimi” filmində feodal dünyasının haqsızlıqlarına qarşı çıxan

şairin həyatı və o dövrün sosial və əxlaqi problemləri əksini tapmışdır. "Dədə Qorqud" filmi poetikliyi ilə fərqlənir. "Babək" filmində IX əsr sərkərdə Babəkin başçılığı ilə Xilafətə qarşı xalqın mübarizəsi təsvir edilmişdir. "Nizami" filmində Nizami Gəncəvinin, "Qəm pəncərəsi" filmində isə Cəlil Məmmədquluzadənin obrazı canlandırılmışdır.

1970-ci illərdə "Fitnə", "Tülkü Həccə gedir", "Cırtdanın yeni sərgüzəştləri", "Çaqqal oğlu çaqqal" və s. cizgi filmlər yaradılmışdır. 1972-ci ildən Azərbaycan televiziyasında da cizgi filmlərinin istehsalına başlanmışdır. Rejissor Vaqif Behbudovun "İlham", "Göyçək Fatma" və "Möcüzələr adası" cizgi filmləri Ümumittifaq televiziya filmləri festivalında mükafata layiq görülmüşdür. Həmin dövrdə Azərbaycanfilm kinostudiyası səsli (ağ-qara, rəngli), genişekranlı, panoram və genişformatlı filmlərdə səsin stereofonik yazılışını təmin edən yeni kino avadanlığı ilə təchiz olunmuşdur. Həmin dövrdə Azərbaycanfilm kinostudiyasında ildə təqribən 7 bədii film, 20 sənədli və elmi-kütləvi film istehsal olunurdur. 7-ci və 21-ci Ümumittifaq kinofestivalları (1974, 1988), kino həvəskarlarının 40-cı beynəlxalq festivalı (UNİKA-78) Bakıda keçirilmişdir.

***VII iştirakçı:*** 1970-ci illərin sonralarında və 1980-ci illərdə Azərbaycan kinosunda mənəvi-əxlaqi problemlərə diqqət daha da artmışdır. Ssenarist Rüstəm İbrahimbəyovla rejissor Rasim Ocaqovun filmlərində mürəkkəb psixoloji vəziyyətlər, əsl insan ləyaqəti ilə əlaqədar müşahidələr, xudbinlik, sərtlik, mərhəmətsizliyə qarşı etiraz kimi mövzulara meyil güclüdür: "İstintaq", "Bağlı qapı", "Park", "Özgə ömür", "Ölsəm... bağışla". Həmin mövzular "De ki, məni sevirsən", "Bizi bağışlayın", "Gümüşü furqon", "Şeytan göz qabağında", "İşgüzar səfər", "Bağ mövsümü", "İlıq dənizdə buz parçası", "Gümüşgöl əfsanəsi" , "Burulğan", "Təxribat" və s.

"Yaramaz" filmində xarakter deformasiyası müasir bədii ifadə vasitələri, satirik boyalarla təsvir edilmişdir. Film

Azərbaycanda və xaricdə böyük maraq doğurmuşdur. 1980-ci illərdə Azərbaycan kinematoqrafında uşaq filmlərinin istehsalına da mühüm əhəmiyyət verilir: “Bir qalanın sirri”, “Sehrli xalat”, “Qərib cinlər diyarında”, “Mən mahnı qoşuram”, “Əzablı yollarla”, “Musiqi müəllimi”, “Gəmi saatının sirri”, 1989-cu ildə ilk fantastik Azərbaycan bədii filmi olan “Əlaqə” yaradılmışdır.

Həmin dövrdə maraqlı elmi-kütləvi kino nümunələri yaradılmışdır: “Naxışların yaddaşı”, “Qızıl balıq”, “Hardasan, yaşıl sahilim”, “Eskulap piyaləsinin sirri”, “Dirçəlmə”, “Torpaq borcu” və s. Azərbaycan sənədli kinosunda aktual mövzuların seçilməsi və araşdırılması üçün yeni yollar axtarılır, çəkiliş metodunun, montajın, səsləndirilmənin əlavə imkanları təcrübədə sınanılır. Bu baxımdan rejissor Teymur Bəkirzadənin “Dissonans”, “Abşeron qalaları”, Zaur Məhərrəmovun “Baharla birgə”, “Köç”, Cahangir Zeynallının “Səfillər”, “İntizar”, Rauf Nağıyevin “Ölü zona” filmləri diqqətəlayiqdir.

1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsi, cəmiyyət qarşısında keyfiyyətcə yeni məqsəd və vəzifələr qoymuşdur. Azərbaycanda milli ideologiyanın və cəmiyyətin yeni inkişaf modellərinin qurulması və digər bu kimi sosial problemlər humanitar elmlərin öncül tədqiqat istiqamətlərinə çevrilmişdir. Bu dövrdə Azərbaycan kinematoqrafında çəkilən filmlərin sayı əvvəlki illərə nisbətən az olmuşdur. Bununla belə, Azərbaycan kinematoqrafçıları böyük əhəmiyyətli, həyati mövzulara müraciət edərək, estetik tələblərə cavab verə biləcək filmlər çəkmişlər: “Yarasa”, “Özgə vaxt”, “Fransız”, “Yapon və yaponiyalı” və s.

1990-cı illərdə Azərbaycanfilm kinostudiyası öz aparıcı rolunu saxlamaqda idi və bu ərəfədə Azərbaycan xalqının dərdini və düşdüyü faciəni ağrı ilə, vətən sevgisi ilə, bədii formada açan vətənpərvərlik ruhunda çəkilmiş Ceyhun

Mirzəyevin “Fəryad”, Ənvər Əblucun “Ağ atlı oğlan”, Gülbəniz Əzimzadənin “Ümid” filmləri tamaşaçının rəğbətini qazanmışdır.

1996-cı ildə Hüseyn Mehdiyevin “Özgə vaxt” filmi, I Beynəlxalq Madrid Kinofestivalında “Ən yaxşı rejissor” və “Ən yaxşı gənc aktrisa” nominasiyaların qalibi olur və “Qızıl Sibilla” və “Gümüş Sibilla” mükafatlarına layiq görülür. Bu film 30-dan artıq ölkədə festivallarda nümayiş olunur. 1998-ci ildə isə Yavər Rzayevin “Sarı Gəlin” filmi Karlovo Varıda keçirilən Beynəlxalq Kinofestivalda Amerikanın təsis etdiyi “Azadlıq” mükafatını və Rusiyanın “Kinoşok” festivalında "Ən yaxşı ssenari" nominasiyasının qalibi olur.

***VIII iştirakçı:*** 2005-ci ildə rejissor Oqtay Mirqasımovun “Ovsunçu” filmi Kazanda keçirilən “Qızıl minbər” Birinci Beynəlxalq İslam Kino Festivalında ən yüksək mükafata “Qran-pri”yə layiq görülüb. Eldar Quliyevin “Girov” filmi isə 2005-ci ildə İsveçdə Geteborq Ekzayl Film Festivalında, 2006-cı ildə Misirdə Qahirə Beynəlxalq Kino Festivalında, 2007-ci ildə Çexiyada “Karlova Varı” Beynəlxalq Kino Festivalında və 2008-ci ildə Polşanın Varşava və Krakov şəhərlərində nümayiş etdirilmiş və mükafatlara layiq görülmüşdür.

2007-ci ilin fevralın 23-də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında” sərəncam imzalamışdır.

2013-cü ildə Bakıda Mədəniyyət və Turizm Nazirliyinin teatr, musiqi, təsviri sənət və kino sahəsində təsis etdiyi “Zirvə” mükafatının 6-cı təqdimetmə mərasimində “Dolu” filmin yaradıcı heyətinə “Zirvə” mükafatı verilib. 2014-cü ildə Elçin Musaoğlunun “Nabat” filmi 63-cü Mannheym-Heydelberq Beynəlxalq Film Festivalında 3 mükafata layiq görülüb.

2015-ci ildə "Yaddaş" Sənədli Filmlər Studiyası tərəfindən "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən III hissə – 15 sənədli film təhvil verilib. "Axınla aşağı" bədii filmi aprel-may aylarında ABŞ-ın Los-Anceles şəhərində keçirilən "SEEfest" festivalında "Ən yaxşı tammetrajlı debüt film" mükafatını qazanıb.

*Tədbirin sonunda Azərbaycan kinolarından parçalar göstərilir.*

Şagirdlər arasında milli kinomuzun təbliğini gücləndirmək və daha yaxından tanıtmaq, kinoya getməyi ənənə halına salmaq məqsədilə kitabxanada müxtəlif adda tədbirlər keçirilə bilər. Bunlardan "rəsm müsabiqəsi" də səciyyəvidir. "Kinoda nəyi görürəm" adlı rəsm müsabiqəsində uşaqlar müxtəlif adda Azərbaycan kinosunun müxtəlif rəsmlərini, oraya məxsus əşya və atributlar, tamaşa anını, nağıl personajlarının və kino ustadlarımızın rəsmini çəkirlər. Münsiflər tərəfindən fərqləndirilən rəsm əsərləri divardan asılır. İştirakçılar mükafatlandırılır.

Milli kinomuzu gənc nəslə tanıtmaq, sevdirmək, milli dəyərlərimizi, tariximizi onlara daha səlis şəkildə çatdırmaq üçün kitabxanada bir sıra tədbirlər görülməkdədir. Bu məqsədlə kitabxanada **oxucularla söhbət** keçirilir. Oxucularla söhbətin əsas mövzusu *"Kino belə yaranmışdır"* adlanır və xarici, milli kinomuzun keçmişindən söhbət açılır. Tədbirdə alimlər, senaristlər, tarixçilər, teatrşünaslar, incəsənət xadimləri, aktyorlar, müəllimlər, ali məktəb tələbələri və s. qonaqlar iştirak edir. İlk olaraq kitabxanaçı hər kəsi salamladıqdan sonra mövzuya uyğun olaraq çıxışa başlayır və kino haqqında məlumat verir:

*Kitabxanaçı:* 1870-1880-ci illər fotoqrafiyanın geniş yayılmağa başladığı dövr idi. Foto həvəskarları çoxalmış, foto lövhələrinə ehtiyac artmışdı. Bu dövrdə foto lövhələri Fransaya belçikalı Van Monkxoven tərəfindən ixrac olunurdu. Böyük gəlir

götürəcəyini anlayan fotoqraf Antuan Lumer özü foto lövhələri hazırlamağı qərara alır. Bu məqsədlə  o, 1880-ci ildə Monplezer məhəlləsində bir barak kirayə götürür, arvadı  və məktəbi yenicə bitirmiş iki oğlu ilə birlikdə brom-jelatin foto lövhələrinin istehsalına başlayır. Antuanın oğlu gənc Lui orada böyük səylə işləyirdi. O, 18 yaşında ikən öz nüsxəsi üzrə hazırladığı foto lövhəsində may böcəyinin şəklini alır. Lumerlər ailəsinin gəliri ildən-ilə artır və 15 il ərzində onların emalaxatxanası böyük fabrikə çevrilir. Aqyust və və Lui Lumer qardaşları foto lövhələri üçün yeni-yeni nüsxələr hazırlayırlar. 1890-cı illərdə Lui Lumer foto lövhələrinin həssaslığını artıraraq ekspozisiya müddətini iyirmidə bir, otuzda bir saniyəyə çatdırmağa müvəffəq olur. Tezliklə onlar yalnız foto lövhələri istehsal etməklə kifayətlənmir, fabrikdə lent şəklində foto kağızı və Edison-Kodok prinsipi üzrə sellüloidal foto lentləri hazırlamaq işini də təşkil edirlər.

Lumer qardaşları xronofotoqrafik  şəkillər çəkməyə və onları proyeksiyalaşdırmağa çalışırdılar. Onların yeganə məqsədi ekranda hərəkət edən canlı xəyallar almaq idi. Qeyd etmək lazımdır ki, bu dövrdə ekranda hərəkət edən canlı xəyallar almaq üçün yalnız Fransada deyil, ABŞ-da, İngiltərədə,  Rusiyada və s. ölkələrdə də axtarışlar aparılırdı. Bu sahədə Amerikada Edison, Meybric, Fransada Mere, Rebyno və başqaları xüsusilə fərqlənirdilər. Hələ 1878-ci ildə Meybric birinci olaraq hərəkət edən objektlərin şəklini çəkə bilmiş, foto 1988-ci ildə Mere lentvarı foti kağızı üzərində ən yaxşı şəkil almağa nail olmuşdu. 1889-cu ildə Edison İstmenin köməyi ilə şəffaf, mütəhərrik, sellülondal perforasiyalı uzun foto lenti  hazırlamışdı. Diksonun köməyi ilə Edison satışa “Kinetoskop” adlanan cihaz buraxmışdı ki, bu da “canlı”  fotoqrafiyanı nümayiş etdirir və və dünyanı həyəcana gətirdi. Edison nümayiş etdirmək üçün

xronofotoqrafik filmlər hazırlamış və hətta ixtira etdiyi fonoqraf ilə onları səsləndirməyə çalışmışdı.

Xronofotoqrafiyanı yaxşı bilən Lumer qardaşları Edisonun kinnetskopu ilə maraqlanırlar; 1894-cü ilin sentyabrında Antuan Lumer Parisdən altı min franka bir kinetoskop və qniki xronofotoqrafik film alaraq Liona gətirir. 1894-cü ilin oktyabr ayında qardaşlar həmin filmləri ekranda nümayiş etdirmək üçün yollar axtarmağa başladılar. Gərgin əmək nəticəsində Lui Lumer məqsədinə nail oldu və kinematoqrafiyanı ixtira etdi.

Ayqust Lumer bu ixtiranın tarixi haqqında belə yazır: “Bu məqsədlə gecə-gündüz durmadan fikirləşirdik. Bir gün səhər tezdən yeni fikrimi qardaşıma demək üçün onun otağına girdim. O, məni görüb dedi: “Bütün gecəni yata bilməmişəm, fikrən məsələni həll etmişəm. Biz elə bir aparat düzəltməliyik ki, onun hərəkəti tikiş maşınındakı hərəkətə oxşasın. Başqa sözlə, onun dişləri perforasiyaya keçsin və lenti dayanıqsız vəziyyətdə saxlasın”. Bu, sözsüz ki, ixtira idi, mən bunu başa düşdüm. Mənim qardaşım kinematoqrafiyanı belə ixtira etmişdir”.

Beləliklə də, Edisonkinetoskopuna ötürücü mexanizm daxil edildi və o təkmilləşdirildi. Lumer qardaşları ixtira etdikləri bu cihazı “kinematoqraf” adlandırırdılar. Bu ixtira üçün 1895-ci il fevralın 13-də ilk patent aldılar və cihazda sonrakı təkmilləşdirmələr üçün onlara daha dörd patent verildi.

Bütün patentlər hər iki qardaşın adına verilmişdir. Lakin Aqyust etiraf edir ki, kinetoskopa ötürücü mexanizm daxil etmək fikri birinci olaraq Luinin ağlına gəlmişdir. Ona görə də ilk ixtiraçı odur.

Lui Lumer ixtira etdiyi ilk “kinematoqraf” ilə film çəkdi. Bu hadisədən iyirmi il sonra kinematoqrafiyanın xeyli inkişaf etdiyi bir vaxtda Rober-Udan teatrının direktoru Jotj Mels həmin tamaşanı xatırlayaraq yazırdı: “Biz kiçik ekranın qarşısında oturmuşduq. Bu ekran bizim istifadə etdiyimiz Molten

proyeksiya ekranına oxşayırdı. Bir neçə an keçəndən sonra ekranda Liondakı Belikur meydanının tərpənməz şəklini gördük. Bir qədər təəccübləndim və yoldaşıma dedim: “Bizi elə belə sadəcə proyeksiya üçün mü narahat ediblər, mən bununla on ildir məşğulam”. Mən fikrimi bitirə bilmədim. Arabaya qoşulmuş at ekranda bizim üstümüzə cumurdu, onun dalınca da başqa ekipaj gəlirdi. Sonra yoldan keçənlər hərəkət edirdi. Bu mənzərəni görəndə bizim ağzımız açıq qalmışdı, təəccübümüzdən özümüzü itirmişdik.

Lumer panoram kino haqqında da çox fikirləşmişdi. Fotoqrafiya, kinematoqrafiya və kimya sahəsindəki işlərinə görə Lumer 1919-cu ildə Paris Elmlər Akademiyasının üzvü seçilmişdir. O, 1948-ci ildə vəfat etmişdir.

Milli Kino Günü münasibəti ilə görülən işlərdən biri də kinoteatrların təbliğatı məqsədilə kitabxanada təşkil olunan ***“ekskursiya”***dır. Ekskursiyanın müddəti bir neçə gün ola bilər. Bu müddət ərzində oxucular kitabxana tərəfindən paytaxtımızda yerləşən teatrlara səyahət edirlər. Hər gün bir ayrı adda kinoteatra səyahət hər kəs tərəfindən sevinclə qarşılanır. Səyahətin əsas məqsədi oxuculara tariximizi, ədiblərimiz və onların qələmə aldığı əsərləri, keçmişimizi, milli dəyərlərimizi, incəsənət və mədəniyyətimizi və eləcə də adı qeyd olunan kino-teatrlarımızı tanıtmaqdır.

Milli kinomuzu tanıtmaq və təbliğini artırmaq məqsədilə kitabxanada görüləcək tədbirlər müxtəlif və qənaətbəxşdir. Bunun üçün kitabxanaçılar həm kitabxanada, həm də məktəblərdə tədbirlər təşkil edir. Məqsəd məktəblilərin kinomuza olan maraq və dəyərlərini artırmaq məqsədi daşıyır. Məktəbdə tədbir təşkil edən kitabxanaçı müxtəlif suallar tərtib edir. Öz dəyərli məlumatlarından sonra bu sualları oxuculara ünvanlayır.

***Kitabxanaçı:*** Azərbaycan kinosu yarandığı gündən azərbaycançılığa, milli düşüncəyə və ideologiyaya xidmət edib. Yəni hər bir dövrdə çəkilən filmlərin janr müxtəlifliyindən asılı olmayaraq maarifçilik missiyasını yerinə yetirir. Fəxrlə deyə bilərik ki, 120 illik böyük tarixi yol keçən Azərbaycan kinosu cəmiyyətin inkişafında böyük rol oynayıb. Azərbaycançılığa, dövlətçiliyə töhfələr verən milli kinomuz heç vaxt öz yolundan dönməyib.

Müasir Azərbaycan kinosunun inkişafında dövlətin böyük rolu var. Məlum olduğu kimi, müstəqillik əldə etdiyimiz ilk illərdə kino sahəsində də ciddi problemlər yaşandı. Azərbaycan kinosu ilə bağlı ulu öndər Heydər Əliyevin 1998-ci il 19 avqust tarixli Fərmanı ilə "Kinematoqrafiya haqqında" Qanun qəbul olundu. 1996-cı ildə isə Azərbaycan Dövlət Film Fondu yaradıldı, filmlərin qorunması təmin edildi. 18 dekabr 2000-ci il tarixli Ulu Öndərin Sərəncamı ilə hər il avqustun 2-si Azərbaycanda Milli Kino Günü kimi qeyd olunur. Kinorejissor Vaqif Mustafayevin ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən "General", "Birinci", "Moskva, Kreml", "Lider", "Tale", "Əsl məhəbbət haqqında", "Bir həsədin tarixi", "Professional", "Patriot", "Xüsusi təyinat" və "Dəvət" filmləri müasir dövrümüzün ən dəyərli sənət nümunələri kimi kinosevərlər tərəfindən maraqla qarşılanıb.

Ölkə başçısı İlham Əliyevin son illər verdiyi sərəncamlardan sonra kinonun bütün sahələrinin problemlərinin həllinə başlanıb. Bu sərəncamlarda respublikamızda, eyni zamanda, dünyanın bir neçə ölkəsində Azərbaycan kinosu üçün kadrların hazırlanması məsələsi də öz əksini tapıb. Onu da qeyd edək ki, yerli və xarici filmlərin yüksək səviyyədə nümayiş etdirilməsi üçün dünya standartlarına uyğun kinoteatrlar tikilib, mövcud olanlar isə müasir standartlar səviyyəsinə gətirilib. "Nizami" Kino Mərkəzi yalnız kinoteatr kimi deyil, həm də tarixi abidə kimi qorunduğu

üçün ən müasir tələblərə cavab verən formada yenidən bərpa edilib.

2008-ci il avqustun 4-də cənab Prezidentin Sərəncamı ilə təsdiq olunan “Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı” artıq öz müsbət nəticələrini verməkdədir. Proqram kino sənətimizdə əsaslı yeniliklərin başlanğıcı oldu desək yanılmarıq. Bu gün milli kinomuz dünyada müstəqil Azərbaycan kinosu kimi tanınmağa başlayıb. Çəkilən filmlərimiz Azərbaycan simasını, özünəməxsusluğunu dünyaya tanıtdıra bildi. Tanınmış kinorejissor, “Humay” mükafatı laureatı Şamil Əliyevin “Çölçü” filmi 5 qitədə Azərbaycan bayrağını qaldıran filmdir. 32 beynəlxalq kinofestivalda olub, 12 mükafat alıb.

Bundan başqa, son illərdə kino sahəsinin inkişafı məqsədilə dövlət büdcəsindən ayrılmış vəsait hesabına tammetrajlı, qısametrajlı bədii, sənədli, cizgi filmləri çəkilib. O cümlədən, dövlət sifarişi ilə Azərbaycan kinosunun aparıcı mövzularından olan Qarabağ müharibəsinə həsr olunan bədii və sənədli filmlər ərsəyə gətirilib. Prezident İlham Əliyev Azərbaycan kinosunun 120 illiyinin qeyd edilməsi haqqında Sərəncamı uzun illər özünün çətin dövrünü yaşayan kino sənətinin inkişafında mühüm rol oynayacaq. 15 sentyabr tarixində ölkəmizdə kino mövsümü başlayacaq.

*Kitabxanaçı fikirlərini yekunlaşdırdıqdan sonra məktəblilərə bir neçə suallarla müraciət edir:*

***Azərbaycanın hansı kino-aktyorlarını tanıyırsız və onlar haqqında məlumat verə bilərsizmi?***

*I məktəbli:* Azərbaycanda teatr sənətinin qurucularından olan aktyor Hüseyn Ərəblinski 1881-ci ildə Bakı şəhərində doğulub. İlk təhsilini mollaxanada alan gələcəyin görkəmli aktyoru maddi çətinliklə əlaqədar məktəbi buraxmağa məcbur olub. Yoxsul uşaqlarının məktəbə götürülməsinə şərait yaradan Həbib bəy Mahmudbəyov gənc Hüseynin də özünün müəllim işlədiyi

“Üçüncü rus-tatar” məktəbinə qəbul edilməsinə yardım edib. Hüseyn Ərəblinskinin teatr sənətinə gəlişinin səbəbkarı da məhz Həbib bəy olur. O, Cahangir Zeynalovla birgə Mirzə Fətəli Axundovun əsərlərindən birini tamaşaya qoymaq istəyərkən epizodik rollar üçün aktyor tapmır və bu işə Hüseyn də daxil olmaqla öz şagirdlərini cəlb edir. 1897-ci ildən 1900-cu ilədək yalnız kiçik rollarda çıxış edən Hüseynin teatrdakı uğurları 1903-1904-cü illərdə yaradılan Müsəlman Artistləri Cəmiyyəti ilə sıx bağlıdır. Belə ki, 1905-ci ildə Lənkərana qastrol zamanı “Müsibəti-Fəxrəddin” tamaşasında əsas rolu oynayacaq aktyor qəflətən xəstələnir. Məcburiyyət qarşısında qalan truppa rəhbərliyi bu rolu Hüseynə tapşırır.

*II məktəbli:* Azərbaycanın Xalq Artisti, görkəmli aktyor, opera müğənnisi, rejissor, pedaqoq, tanınmış teatr xadimi Hüseynqulu Sarabskinin XX əsr milli musiqi mədəniyyətimizin tarixində özünəməxsus yer tutan sənətkarlardandır. Professional musiqi teatrının banilərindən biri olan Hüseynqulu Sarabskini səhnəmizin əfsanəvi Məcnunu adlandırırlar. Sənətə Şərqin və Azərbaycanın ilk operası, dahi Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” zirvəsindən başlayan sənətkar bütün ömrünü bu zirvənin məsuliyyətini və ucalığını dərk edərək yaşayıb, sənətinə, peşəsinə vurğunluğu ilə nəsillərə nümunə olub. Səhnədə olduğu 30 ildən artıq bir müddətdə Məcnun rolunu 400 dəfə ifa edib.

1879-cu ildə Bakıda kasıb bir ailədə doğulan, gözəl səsə malik olan Hüseynqulu uşaqlıqdan musiqiyə böyük həvəs göstərirdi. Görkəmli sənətkarın Sarabski təxəllüsünü götürməsinin maraqlı tarixçəsi var. 12 yaşında olarkən ilk dəfə həvəskarların ifasında “Xan Sarabi” adı ilə tamaşaya qoyulmuş Mirzə Fətəli Axundzadənin“Sərgüzəşti-Vəziri-Xani-Lənkəran” komediyasına baxır. Əsl soyadı Rzayev olan Hüseynqulunun

sonralar götürdüyü səhnə təxəllüsü-Sarabski də tamaşadan aldığı güclü təəssüratla bağlıdır.

*III məktəbli:* Azərbaycan kinematoqrafiyası tarixində parlaq iz qoyan görkəmli sənətkarlardan biri də sənədli filmlər ustası, kinorejissor Niyazi Bədəlov olub. Niyazi Mustafa oğlu Bədəlov 10 iyul 1909-cu ildə Şəkidə dünyaya göz açıb. 1927-ci ildə Şəkidə “Yeni yol” kinoteatrında kinomexanik köməkçisi işinə qəbul edilir. Kino dünyasına bağlanan gənc 1931-1936-cı illərdə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsində təhsil alıb. Burada görkəmli sənətkar S.Eyzenşteyndən rejissorluq sənətinin sirlərini öyrənir. Bakıya döndükdən sonra “Azərbaycanfilm” kinostudiyasında işə düzəlir və ilk işlərini — “Komsomol nəsli” və “Azərbaycan aşıqları” (1938) sənədli filmlərini ərsəyə gətirib. Sonra görkəmli rejissor H.Seyidzadə ilə birgə “Ayna” adlı bədii filmin çəkilişlərinə başlasalar da, iş yarıda dayandırılıb. Ancaq o, çəkilmiş materiallardan istifadə edərək 1942-ci ildə “Sovqat” adlı qısametrajlı bədii filmini hazırlayıb. Film II Dünya müharibəsinin qızğın çağlarında arxa və ön cəbhədə nümayiş olunur, döyüşçülərdə yüksək əhval-ruhiyyə yaradırdı.

*IV məktəbli:* Adil İsgəndərovla bir yerdə çalışanlar, dostları, tələbələri, bir sözlə, bu nəhəng sənət fədaisi ilə təmasda olan bütün insanlar Adil İsgəndərov haqqında xoş xatirələr danışırlar. Doğrudan da, Adil müəllim işıqlı insan idi. Özü işıqlı olduğu kimi, uzun illər teatr, kino sənətimizin də yoluna işıq saçmış, respublikamızda bu incəsənət sahələrinin inkişafı üçün böyük məktəb yaratmışdı. Bu gün həmin sahələrin yükü də elə onun məktəbinin yetirmələrinin çiyinlərində qərar tutub. 40 ilə yaxın teatrımızın, ekran sənətimizin inkişafına xidmət etmiş bu fenominal şəxsiyyət bütün yaradıcı fəaliyyətini milli-mənəvi dəyərlərimizin qorunmasına yönəldib. Adil müəllim bütün ruhu ilə azərbaycanlı idi, o, bu xalqı sevirdi və yaratdıqları da xalqın

ruhundan güc alırdı. Adil İsgəndərov 1910-cu il baharın təravətli günlərindən birində — mayın 5-də Gəncədə dünyaya göz açmışdı. Bəlkə ona görə idi ki, ruhunda, qəlbində bir bahar ovqatı var idi. Ağır təbiətli idi, ancaq həmişə qeyri-adi, özünəməxsus zarafatları ilə insanlara xoş ovqat bəxş etməyi sevərdi. Sənət adamları ona "Ədil müəllim" deyə müraciət edirdilər. Zabitəli insan idi. Onunla təmas yaratmaq o qədər də asan deyildi, ancaq dostları, yaxınları deyirdilər ki, Adil müəllimə yaxınlaşdınsa, ondan aralanmaq da müşkül işə çevrilir. "Köhnə kişilər"in təbiəti var idi onda. Elə kinoda rol seçəndə də, görünür təbiətindəki bu ştrixləri nəzərə alırdı. Adil müəllim Teatr Texnikumunu bitirmişdi, sonra isə A.V.Lunaçarski adına Moskva Dövlət Teatr Sənəti İnstitutunda təhsil almışdı. Üstəlik Moskvadakı Bədaye Teatrında rejissorluq təcrübəsi keçmişdi. Buna baxmayaraq, bütün yaradıcı ruhuna milli klassik teatr ənənələri hakim idi.
*V məktəbli:* Telman Adıgözəlov. Abasqulu kişinin ailəsi Balakəndə sovxozda işləyirdi. Ailədə iki oğlan uşağı böyüyürdü, ailə bütün o vaxtkı Sovet ailələri kimi sadə, xudmani dolanırdı. Elə bir dərdi-sərləri də yox idi, ailə sadəcə özlərini yerlərində hiss etmirdilər, elə bil qəribçilikdə yaşayırdılar.

Adıgözəlovlar ailəsi əslən Ordubaddan idilər. Tarixin gedişatı ilə o vaxt Ordubaddan bir çox ailələr Balakənə köçürülüb. Sovet rəhbərliyinin nə isə düşünülmüş siyasəti olub ki, Ordubaddan Balakənə insanları nəsillikcə köçürüb. Bu ailə də daxil olmaqla Balakəndə Ordubaddan olan ailələrin yaşadığı məhəlləyə "Ordubad" məhəlləsi də deyirmişlər. Bir gün ailənin kiçik oğlu Telman möhkəm soyuqlayır, anası onu çimdirdikdən sonra həyətdə oynamağa qaçan uşaq soyuqlamadan müalicə alır və sağalır. Ancaq uşağın bir qolunda soyuqlamış limfalar şişir, irinləyir sağalmaq bilmirdi. Həkim deyir ki, Balakənin iqlimindən çıxmasa bu uşağın qolu qanqrena eləyəcək, kəsməli

olacayıq. Ailə uşağı da götürüb Bakıya köçməli olur, həm uşağın müalicəsini elətdirmək, həm də nə qədər zaman da keçmiş olsa sürgün həyatının alınlarına vurduğu möhürdən xilas olmaq üçün. Cənnət də olsa Abbasqulu kişiyə Balakənə məcburən köçürüldükləri fikri rahatlıq vermirdi. O vaxt dördüncü sinifdə oxuyan Telman və qardaşı Vaqif üçün Balakən doğma idi, çünki bu dünyaya gözlərini orda açmışdılar, orda dostları, doğma məktəbləri vardı. Bakıya da tez öyrəşdi, tezliklə özünə yeni dostlar tapdı, yarası da sağalıb keçdi. Bir gün məktəb yoldaşları ilə dərsdən qaçıb kinoya getmişdilər. O vaxt çox sevilən bir hind filminə baxmaq üçün dərsdən qaçmağa dəyərdi, həm də bunun zövqü təkcə kinoya baxmaqla bitmirdi, dərsdən qaçıb kinoya getməyin öz romantikası vardı. Kinodan çıxanda bir nəfər Telmana yaxınlaşıb ona televiziyaya gəlməyi təklif etdi. Yuxarı siniflərdə oxusa da hələ peşə seçimi barədə müəyyən bir fikrə gələ bilməyən Telman təklifi qəbul etdi. Dövlət televiziyasında çalışan rejissor Nazim Zeynalov onu "Evrika" verilişində fantastik səhnələrə çəkdi. "Yasəmən" televiziya teatrında iştirak edib. Yeddinci sinifdə oxuyanda isə Adil İsgəndərovun kinoaktyor kurslarına yazılıb. Beləliklə, Azərbaycan incəsənətinə yeni bir imza gəlir – Telman Adıgözəlov. 1975-ci ildə indiki Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsini bitirəndə Telman Adıgözəlovu tamaşaçı artıq televiziyadan tanıyırdı. Aktyor beş il Tədris Teatrında, televiziya tamaşalarında, səhnəciklərdə işlədi. 1980-ci ildə Milli Dram Teatrında işə başlayan aktyor ömrünün sonuna qədər bu teatrda çalışdı. Bir-birindən maraqlı, müxtəlif xarakterli obrazlar oynadı.

*VI məktəbli:* Bağırov Hacıbaba Ağarza oğlu (12.06.1932-6.10.2006) 1932-ci il iyun ayının 12-də Bakı şəhərində, fəhlə ailəsində anadan olub. Kiçik yaşlarından teatr sənətinə olan böyük həvəsi 1947-ci ildə orta məktəbi bitirəndən sonra, onu

Azərbaycan Dövlət Akademik Dram Teatrı nəzdindəki aktyor studiyasına gətirib-çıxarıb. Orada sənət korifeylərindən dərslər alıb – nəzəri və təcrübi vərdişlər teatra marağını və məhəbbətini daha da artırıb və 1950-ci ildə Lənkəran Dövlət Dram Teatrında ilk müstəqil yaradıcılıq fəaliyyətinə başlayıb. 1953-cü ildə Azərbaycan Dəmiryol Məktəbini bitirib, bir müddət Biləcəri deposunda maşinist köməkçisi işləyib. 1959-1960-cı illərdə Daxili İşlər Nazirliyinin klubuna rəhbərlik edib. 1960-cı ildə C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrının aktyor truppasına qəbul olunub. Bu kollektivdə Fuad ("Almas"), Şahsuvar ("Komsomol poeması"), Rəşid ("Anacan") kimi müxtəlif səpgili rollar oynayıb. 1962-ci ildə Musiqili Komediya Teatrına dəvət olunub. Burada fəaliyyət göstərdiyi 26 il ərzində yaratdığı 50-dən çox surətin onun gülüş ustası kimi püxtələşməyində və populyar olmağında böyük təsiri olub.

Azərbaycan Kinosunun Yaranması Günü ilə əlaqədar olaraq, kitabxanada kino həftəsi keçirilə bilər. Həftə ərzində tamaşaçılar kitabxanaya gələrək ayrı adda uşaq kinoları ilə, "Ögey ana", "Qaraca qız", "Asif, Vasif, Ağasif", "Şərikli çörək", "Dərs", "Bir qalanın sirri", "Sehirli xalat" uşaq kinoları ilə tanış ola bilərlər.

Azərbaycan kinosunun 120 illik yubileyi münasibətilə kitabxanada görülən tədbirlərdən biri də *"Azərbaycan animasiya aləmində"* adlı nağıl otağında görüş keçirilə bilər. Görüş aşağı siniflər arasında nəzərdə tutulur. Kitabxanaçı iştirakçıları salamladıqdan sonra Azərbaycanda cizgi filmlərinin yaranma tarixi haqqında məlumat verir.

*Kitabxanaçı*: Kino sənətinin əsas növlərindən biri də animasiya kinosudur. Bu növ uşaqlar üçün nəzərdə tutulmuşdur. Ona multiplikasiya kinosu da deyilir. Animasiya kinosu yeni multipkasiya filmləri rəsmli, yaxud həcmli obyektləri müəyyən fazalarla hərəkət etdirib onların bu hərəkətini ardıcıl lentə

almaqla yaranır. Animasiya kinosunda fantastika, bədii uydurma mühüm yer tutduğuna görə tədqiqatçılar bəzən onu təsviri sənət növlərinə daha yaxın hesab edir və ya kinematoqrafiya texnikasından istifadə edən müstəqil sənət sayılır. Gerçəkliyin əks etdirmənin xüsusi bədii şərtilik forması olan qrafik animasiya fantastik hadisə və əhvalatların təsviri üçün özünə məxsus ifadə vasitələrinə malikdir. Əhvalatı göstərmək cəhətdən qrafik animasiya ilə ayaqlaşa bilməyən həcmli animasiyada personajların təsviri xarakteristikası daha dolğun olur.

Elektronikaya və kibernetik maşınların tətbiqinə əsaslanan animasiya filmləri də vardır ki, onlara kompüter animasiyası deyilir. Bu cür filmlər hazırda çox geniş yayılmışdır və sürətlə inkişaf etməkdədir. Animasiya rejissorları son zamanlar cəsarətlə öz filmlərinə bədii və sənədli kadr daxil edir, kinonun müxtəlif növlərinin imkanlarından bəhrələnir və bir növ "hibrid" formaları yaradırlar.

Azərbaycanda cizgi filmlərinin yaranması XX əsrin 30-cu illərinin əvvəllərinə təsadüf edir. Hələ 1933-cü ildə "Azərbaycanfilm" studiyasının işçiləri kinonun bu növünün istehsalı üçün əvvəlcədən hazırlıq işləri aparmış, Moskvadan lazımi materialları alıb gətirmişdilər. Onlar həmin il "Lökbatan" və "Neft simfoniyası" (rej. B.Pumpyanski) sənədli filmlərini çəkərkən texniki animasiyadan istifadə etmişdilər. "Cat" təlimat filmində isə (rəs. Basov) animasiyadan bütünlüklə istifadə olunmuşdur. Film ümumittifaq ekranlarında 1938-ci ilə qədər nümayiş etdirilmişdir.

Məhz bu film ekranlara buraxılandan sonra kinostudiyada bir qrup təşəbbüskar ilk dəfə cizgi filmi yaratmağı qərara aldı. Film üçün mövzu Azərbaycan xalq nağıllarından götürüldü. Ssenarini A.Papov yazdı. "Abbasın bədbəxtliyi" adlanan bu ssenariyə gənc rejissor E.Dikaryov quruluş verdi. Rəsmləri rəssamlardan

Q.Xalıqov, C.Zeynalov, M.Maqomayev və Ə.Mirzəyev çəkmişlər. Filmin operatoru Q.Yegiazarov idi.

Bundan başqa Böyük Vətən müharibəsi başlamamışdan bir qədər əvvəl studiyada ikinci cizgi filminin çəkilişlərinə hazırlıq görülmüşdür. Filmin adı belə idi: "Sindbad dəniz səyyahıdır". Bu, səsli film olmalı idi. Lakin təəssüf ki, müharibənin başlanması ilə əlaqədar işlər yarımçıq qaldı.

Qeyd etmək lazımdır ki, bundan sonra da kinostudiyada yüzlərlə elmi-kütləvi və sənədli filmlərin çəkilişində cizgi rəsmlərindən istifadə edilmişdir. Bu filmlərin yaradılmasında rəssamlardan C.Zeynalov, M.Rəfiyev, A.Axundov, N.Məmmədov, B.Əliyev, quraşdırma çəkilişləri operatoru A.Milov iştirak etmişlər.

60-cı illərin sonlarında kinostudiyada cizgi filmlərinin çəkilişi üçün şərait yaradıldı. Multfilmlərin çəkilişi üçün 20 nəfərdən ibarət rəssamlar qrupu yaradılmışdır. Multfilm sənətinin sirrlərini öyrənmək üçün studiyada xüsusi kurslar açılmışdır.

1968-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında cizgi filmləri sexi bərpa olunandan sonra direktor Ə.İsgəndərov sexin istifadəyə verilməsinə və cizgi filmləri üzrə kadrların hazırlanmasına, eyni zamanda cizgi filmlərinin istehsalı prosesinə diqqət yetirirdi.

Nəhayət, 1969-cu il fevralın 28-də "Cırtdan" adlı xalq nağılının motivləri əsasında eyni adlı cizgi filmin istehsalı başa çatdırıldı. "Cırtdan" kinostudiyanın cizgi filmləri sexinin bərpasından sonra çəkilmiş birinci film oldu. Film 1969-cu ildə ekranlara buraxıldı və uzun müddət kinoteatrlarımızın ekranlarından düşmədi. Beləliklə, "Cırtdan"ın istehsalı ilə Azərbaycanda cizgi filmləri tarixində ikinci dövr başlandı.

70-ci illərdə kinostudiyanın cizgi filmləri şöbəsində 20-dən artıq cizgi filmi istehsal olunmuşdur. 1970-ci ildə

multiplikatorlar kinonun bu növündə üç filmə ekran həyatı vermişdilər. Bunlardan ikisi “Ayı və siçan” (rej. N.Məmmədov) və “Şir və öküz” (rej. A.Axundov) mikrofilmlərdir. İkinci film o vaxt “Kaleydoskop-71” Ümumittifaq kinoalmanaxına daxil edilmişdir.

“Fitnə” (rej. A.Axundov) rəngli applikasiya filmidir. Bu film isə dahi Azərbaycan şairi N.Gəncəvinin eyniadlı nağıl-novellasının motivləri əsasında çəkilmiş, təsvirin işlənməsi (rəssam E.Rzaquliyev) orta əsr Azərbaycan miniatür sənəti üslubunda həll olunmuşdur.

“Pıspısa xanım və Siçan bəy” (1974) və “Cücələrim” (1980) cizgi filmlərində (rej. A.Axundov) orijinal plastik həllin axtarışları aydın nəzərə çarpır. 1971-ci ildə A.Şaiqin eyniadlı əsəri əsasında çəkilmiş “Tülkü həccə gedir” (rej. N.Məmədov, B. Əliyev) cizgi filmi istər üslub, istərsə də sənətkarlığa görə ən maraqlı işlərdəndir. “Çaqqal oğlu çaqqal” kukla filmi (1972, rej. M.Rəfiyev) ilk və yeganə genişekranlı Azərbaycan cizgi filmidir.

Filmlərin yaradılması üzərində rəssam – multiplikatorların böyük qrupu işləmişdir. A.Axundov, N.Məmmədov və M.Rəfiyevdən başqa M.Pənahi, B.Əliyev, H.Əkbərov, F.Quliyeva, Ə.Məmmədov da kinostudiyada cizgi filmləri yaratmışlar.

“Bulud niyə ağlayır” (1973, rej. M.Pənahi) filminin mövzusu milli folklorumuzdan götürülmüşdür. Təsvirin həlli klassik şərq miniatürünə əsaslanır. 1974-cü ildə Bakıda VII Ümumittifaq kinofestivalında animasiya filminə I mükafat verilmişdir.

“Cırtdanın yeni sərgüzəşti” filmi (1973, rej. N.Məmmədov və B.Əliyev) kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Filmdə xalq folklorunun fantastik motivləri ilə müasirlik üzvi şəkildə bir-birinə bağlanmışdır. “Şahzadə - qara qızıl” film-nağılı (1974, rej. N.Məmmədov və B.Əliyev) poetik

formada insanın yerin altından, dənizin dibindən qara qızıl çıxarmasından söhbət açır.

"Günlərin bir günündə" (1975), "Dınqıl sazım, dınqıl" (1976), "Pəncə...Qulaq...Palaz...Tikan" (1976) cizgi filmlərində (rej. M.Pənahi) ibrətamiz məsələlərə toxunulur. "Şah və xidmətçi" filminin də (1976, rej. N.Məmmədov) əsasını N.Gəncəvinin əsərinin motivləri təşkil edir. Burada Azərbaycan oxucusuna çox yaxşı məlum olan sədaqətli nökər və amansız, qəddar şahın əhvalatı ekranda canlandırılmışdır.

Qarışıq texnikada işlənilmiş "Arzunu yarat" filmində (1977, rej. F.Qurbanova) eksperiment aparılmış, burada aktyor və animasiyadan istifadə edilmişdir. Bunu film-klip də adlandırmaq olar.

Bu illərdə müstəqil olaraq iki film - "Daş" və "Kirpi balası və alma" cizgi filmləri (1977, rej. H.Əkbərov) yaradılmışdır. Böyüklər üçün nəzərdə tutulmuş birinci film dünya xalqlarını müharibələrin qadağan edilməsi, yer üzündə sülhün bərqərar olması uğrunda həmrəyliyə çağırır. İkinci film bizi canlı təbiəti qorumağa səsləyir. "Toplan və kölgəsi" (1977), "Sonrakı peşmançılıq" (1978) və "Sehrlənmiş küpə" (1979) cizgi və applikasiya filmlərində də (rej. N.Məmmədov) xeyirxah, nəcib olmağın vacibliyindən, əməksevərlikdən, böyüklərə hörmətdən və digər insani keyfiyyətlərdən danışılır.

"Qız qalası əfsanəsi" cizgi filmi (1978) adından göründüyü kimi Azərbaycan xalq əfsanəsinin motivləri əsasında yaradılmışdır.

80-ci illərdə kinostudiyada 38 adda cizgi filmi istehsal olunmuşdur. Bunlardan "Cücələrim", "Meşəyə insan gəlir", "Sehrli ağac", "Taya", "Dəcəl dovşan", "Sandıq", "Sən belə cumbulusan", "Sehrli ləçək ", "Uçan zürafə", "Qəribə əjdaha", "Təqib", "Yatmaq vaxtıdır", "Balaca çoban", "Humayın yuxusu", "Sakit Yonun macəraları", "Ana ağaca qonub" və s.

cizgi, "Xeyir və Şər", "Cırtdan-Pəhləvan", "Uşaq və külək", "Akvarium", "Cırtdan və div", "Yeni il əhvalatı", "Sehrli naxışlar" applikasiya üsulu ilə çəkilmişdir.

80-ci illərin əvvəllərində çəkilmiş "Cücələrim" adlı cizgi filmi (rej. A.Axundov) tez bir zamanda populyar olmuşdur. N.Gəncəvinin "Xeyir və Şər" əsərinin motivləri əsasında çəkilmiş eyniadlı applikasiya filmi (rej. N.Məmmədov) böyüklər üçün nəzərdə tutulmuşdur. Kinolentdə susuz səhrada Xeyirin ürək genişliyi ilə xeyir iş görməsindən və buna cavab olaraq Şərin göstərdiyi bədxah əməllərdən danışılır.

"Akvarium" applikasiya filmi (rəssam-rejissor F.Qurbanova) poetik filmdir. Burada quraşdırma çəkilişlərindən istifadə edilmişdir. Applikasiya personajları ilə yanaşı filmdə canlı oğlan da fəaliyyət göstərir.

1984-cü ildə Murmansk şəhərində (Rusiya) təbiətin mühafizəsi və onun ehtiyatlarından səmərəli istifadə edilməsi haqqında sənədli və elmi-kütləvi filmlərin II Ümumrusiya müsabiqəsində cizgi filminə münsiflər heyətinin diplomu və RSFSR Dövlət Kinematoqrafiya Komitəsinin Fəxri fərmanı verilmişdir.

Kinostudiyada yarıqabarıq kukladan ilk dəfə "Münəccimin şagirdi" filmində (rej. A.Məhərrəmov) istifadə olunmuşdur. Xalq nağılları əsasında yaradılmış bu filmdə asan yolla varlanmaq istəyən, acgözlük nəticəsində gülünc vəziyyətlərə düşən bir yeniyetmədən danışılır.

"Bir axşam..." (rej. və rəssam F.Qurbanova) filmi - cizgi, qarışıq, ekler filmidir. Özünəməxsus üslub həlli, müvəffəqiyyətli musiqi sərxoşluq və alkoqolizm əleyhinə olan bu filmin ictimai pafosunu bir az da qüvvətləndirir. Burada aktyor oyunu və rəsmlərlə qurulmuş səhnələr vardır. Filmdəki hadisələr adi bir otaqda, səkkiz yaşlı qız uşağının gözləri önündə baş verir. 1986-cı ildə Alma-Atada XIX Ümumittifaq

kinofestivalında film aktual mövzunun orijinal həllinə görə münsiflər heyətinin xüsusi prizini almışdır.

Adlarını çəkdiyimiz kinolentlərdən başqa 80-ci illərdə daha bir neçə cizgi filmi, o cümlədən "Yaz oyunları", "Nar ağacının nağılı", "Qaravəlli", "Gəldi kosa", "Xrizantema yarpağı", "Çətin məsələ", "Arzular...arzular...", "Lovğa fil balası", "Talada ev" və s. yaradılmışdır.

Bütün bunlarla bərabər ümumilikdə götürdükdə Azərbaycan cizgi filmlərinin bədii keyfiyyəti heç də eyni səviyyədə deyildi. Bunun bir neçə səbəbi var idi: birincisi kadrların hazırlığı, peşəkarlığı, ikincisi isə texniki avadanlığın, xüsusilə boyaların kasadlığı ilə əlaqədardır.

80-ci illərin sonunda ölkədə gedən ictimai-siyasi proseslər, bunların bütün sahələrə, o cümlədən yaradıcı təşkilatlara təsiri, "Azərbaycanfilm"in yeni iş üsuluna keçməsi ilə əlaqədar yollar axtarması kinostudiya nəzdindəki birlik və şöbələrin müstəqil fəaliyyət göstərməsinə təkan verdi. 1990-cı ilin aprel ayında Sovet İttifaqında ilk dəfə olaraq Azərbaycan multiplikatorları təsərrüfatın icarə formasına keçdilər. Multiplikasiya sexinin adı da dəyişdirilib, "Azanfilm" Yaradıcılıq-İstehsalat Birliyi oldu. "Azanfilm" – Azərbaycan animasiya filmləri deməkdir. Nə üçün multiplikasiya yox, məhz animasiya? Ona görə ki, bütün dünyada multiplikasiya (çoxalma) kimi kinematoqraf növü animasiya (canlandırma) adlandırılmışdır.

90-cı illərdə "Azanfilm" markası altında 19 cizgi filmi çəkilmişdir. Bunların arasında "Bir dəfə haradasa..." (rej. V.Talıbov), "İthaf" (rej. Ş. Nəcəfzadə), "Oda" (rej. V.Talıbov, R.İsmayılov), "Sərkəyin dastanı" (rej. A.Məhərrəmov), "Göyçək Fatma", "Karvan" (rej. N.Məmmədov), "Güzgü", "Dəniz gəzintisi", "Ümid" (hamısı rej. E.Axundov), "Söhbətül-əsmar " (rej. E.Hami), "Şüəla" (T.Piriyev) maraqlı və baxımlı ekran əsərləridir.

“Bir dəfə haradasa...” cizgi filmi bizim günlərdə baş verən hadisələr haqqında siyasi satiradır. 1993-cü ildə Bakıda Azərbaycan filmlərinin II festival-müsabiqəsində ən yaxşı cizgi filminə görə rejissor V.Talıbova priz və diplom verilmişdir. “İthaf” applikasiya filmi Stalin repressiyasının qurbanlarına həsr edilmişdir. 1991-ci ildə Oberhauzen Beynəlxalq kinofestivalında animasiya filmi diplomla təltif olunmuşdur. 1991-ci ildə Kiyevdə “KROK-91” Beynəlxalq animasiya filmləri federasiyasının (ASİFA) festivalında ən uğurlu debüt üçün mükafata layiq görülmüşdür. 1991-ci ildə Bakıda “Şərqdən baxış” Beynəlxalq kinofestivalında ən yaxşı animasiya filminə görə mükafat almışdır.

“Oda” cizgi filmində dahi bəstəkar Bethovenin 9-cu simfoniyasından sevinc odası səslənir. Kinolent həyatın mənası, yaradıcılıq haqqında fəlsəfi düşüncələrdir.

S.S.Axundovun “Qorxulu nağıllar” ının motivləri əsasında çəkilmiş “Ümid” cizgi filmi “Bizim naməlum kino-2” festivalında rejissora pul mükafatı və priz qazandırmışdır. “Söhbətül-əsmar” applikasiya filmi dahi Azərbaycan şairi M.Füzulinin anadan olmasının 500 illik yubileyinə həsr olunmuşdur. Təsvirdə müəlliflər əsasən miniatürçü rəssam Soltan Məhəmməd Təbrizinin əsərlərinə əsaslanmışlar. 1995-ci ildə Bakıda Azərbaycan filmlərinin III festival-müsabiqəsində ən yaxşı cizgi filminə görə rejissor diplom və prizlə təltif olunmuşdur. Bəstəkar Soltan Hacıbəyovun məşhur “Karvan” əsəri əsasında çəkilmiş “Karvan” cizgi filmi üç novelladan ibarətdir: birincisi qədim insan məskəni Qobustandan söhbət açır. İkinci novellada Şərq və qadın mövzusuna toxunulmuşdur. Üçüncü novella 20 Yanvar və Xocalı faciələri barədə danışır.

Tədbirin sonunda ssenari müəllifi Elçin Əfəndiyevə, rejissorluğu isə Nazim Məmmədova aid “Humayın yuxusu” adlı cizgi filmi nümayiş edilir.

## Ədəbiyyat siyahısı

**Azərbaycan filmləri** [Elektron resurs] = Peliculas azerbayanas : Kinofilm. **1** : Sənədli filmlər ; **2** : Bədii filmlər. - Bakı : [s. n.], 2014. - 2 el. opt. disk (DVD-ROM) : rəngli.

**Azərbaycan kino tarixi** oçerkləri. - Bakı : Tural, 2001. - 280 s.

**Azərbaycan kinosu** : 2 clddə. **I cild** : A - K : Ensiklopedik lüğət. - Bakı : Elm və Təhsil, 2017. - 284 s.

**Dadaşov A.** Azərbaycan kinosu: mövzu, struktur, üslub, janr : monoqrafiya. - Bakı : Polygraphig production, 2015. - 712 s. : foto.

**Dadaşov A.** Dünya kinosu örnəklər kontekstində. - Bakı : Şərq-Qərb, 2016. - 688 s. : foto, rəngli foto. - Dünya kinosunun 120 illiyinə ithaf olunur.

**Dadaşov A.** Rejissor Arif Babayev. - Bakı : Nağıl evi, 2006. - 186 s.

**İsrafilov İ.** Tofiq Kazımovun rejissor dərsləri. - Bakı : Aspoliqraf, 2013. - 232 s :

**Kazımzadə (Kazımov) A.** Üzeyir Hacıbəyov və kino. - Bakı : Nağıl evi, 2005. - 128 s.

**Kazımzadə A.** Azərbaycan kinematoqrafçıları : Portretlər - Bakı : Təhsil, 2012. - 224 s.

**Kazımzadə A.** Azərbaycan kinematoqrafçıları : Portretlər, araşdırmalar, filmlərin yubileyi, kino tariximizdən. - Bakı : Tərəqqi, 2014. - 418 s. : foto. - (Azərbaycan Dövlət Film Fondu).

**Kazımzadə A.** Azərbaycan kinematoqrafçıları : Portretlər. - Bakı : Tərəqqi, 2013. - 281 s. : foto

**Kazımzadə A.** Əbədi ölməzlik zirvəsi : Azərbaycanın Əməkdar incəsənət xadimi, kinooperator və kinorejissor Əlisəttar Atakişiyevin anadan olmasının 100 illiyinə həsr edilir - Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2006. - 134 s.

**Kazımzadə A.** Heydər Əliyev və kinematoqraf. - Bakı : Apostrof, 2011. - 212 s. : rəngli foto.

**Kazımzadə A.** Kino və zaman : (1923-2016) - Bakı : Şərq-Qərb, 2016. - 784 s.

**Kazımzadə A.** Kinooperator Kənan Məmmədov. - Bakı : Mütərcim, 2010. - 272 s.

**Kino bülleten** : Azərbaycan kinosunun 110 illiyinə həsr olunur. I buraxılış. - Bakı : İsmayıl, 2008. - 104 s.

**Kino bülleten** : Dövlət film fondu. V buraxılış. - Bakı : Tərəqqi, 2012. - 120 s.

**Kino bülleten**. VII buraxılış. - Bakı : Tərəqqi, 2014. - 82 s.

**Teatr və kino** Həyatın hər iki üzü. - Bakı : Ayna Mətbu Evi, 2004. - 80 s. - (Ayna Uşaq ensiklopediyası).

# Azərbaycan  Milli Kinosu Tariximizin salnaməsidir

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 61
Çapa imzalanmışdır: 15.11.2018
Tirajı:100
Pulsuz